

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 103 (23.745)

*9 iyun 2021-ci il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İran nümayəndə heyəti ilə görüşüb

İyunun 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Yollar və Şəhərsalma naziri Məhəmməd Eslaminin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Ali Məclisin Sədri nümayəndə heyətini salamlamış, onları Naxçıvan Muxtar Respublikasında görməkdən məmnunluğunu bildirmiş, ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin əhəmiyyətini vurğulamışdır. Azərbaycanın Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə əlaqələrindən bəhs edən Ali Məclisin Sədri nəqliyyat sahəsindəki əməkdaşlığa diqqəti çəkmişdir.

İran İslam Respublikasının Yollar və Şəhərsalma naziri Məhəmməd Eslami Ali Məclisin Sədri ilə görüşdən və Naxçıvana səfərindən məmnun olduğunu qeyd etmiş, ölkələrimiz arasındakı münasibətlərin inkişaf etdiyini bildirmiş, Qələbə münasibətilə təbriklərini çatdırmışdır.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Azərbaycan Respublikası Baş Nazirinin müavini Şahin Mustafayev və digər rəsmi şəxslər görüşdə iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Böyük liderlik missiyası: Heydər Əliyevdən İlham Əliyevə

*Siyasi nəzəriyyələrdə müxtəlif meyarlara görə liderlərin tipologiyasını aparırlar. Bu, liderliyə hansı aspektdən və hansı sosial-siyasi kontekstdə yanaşmadan asılı olur.*

Məsələn, liderliyin "Böyük insan", "bayraqdar lider" (M.C.Hermann), "Ənənəvi lider", "Rasional lider", "Xarizmatik lider" (Maks Veber), "Əsl qəhrəman lider" (F.Nitsşe) və sair kimi xarakteristikaları mövcuddur. Hegel ideal lideri öz missiyasını dərk edən tarixi şəxsiyyət kimi təqdim edirdi. XIX əsr ingilis alimi Tomas Karleyl yazırdı ki, "dünya tarixi böyük insanların tarixidir" və "qəhrəmanlar mahiyyətə vara bilirlər".

Bunlardan başqa, liderləri təsir miqyaslarına görə də təsnifatlandıran nəzəriyyəçilər vardır. Məsələn, "Qrup lideri", "Siyasi lider", "Ümummilli lider" və sair Lider haqqında müasir nəzəri təlimlərdə ümummilli liderlər, bütövlükdə, xalq və dövlət miqyasında, həm də ölkə masştabından kənarda da real liderlik edə bilən şəxsiyyətlər kimi səciyyələndirilir. Onlar mövcud sosial-siyasi, iqtisadi və geosiyasi vəziyyəti ciddi surətdə dəyişmək qüdrətinə malik olurlar. Ümummilli Liderlər ölkənin sosial-siyasi strukturunu yenidən təşkil edə bilirlər. Nümunə olaraq Mustafa Kamal Atatürkü, Ruzvelti göstərmək olar.

Azərbaycan xalqının Ulu Öndəri, görkəmli dövlət xadimi Heydər Əliyev liderlikdən Ümummilli Liderliyə qədər inkişaf edən və həm ölkəsində, həm də dünyada əsl lider olaraq qəbul edilən fərqli şəxsiyyətdir. Liderlik haqqında dünya təlimindəki əsas keyfiyyətlər Heydər Əliyevin simasında ümumiləşir.

Heydər Əliyev postsovet məkanında yeganə ölkə rəhbəri və Prezident idi ki, görkəmli dövlət başçısı funksiyasını Ümummilli Liderliklə üzvi surətdə birləşdirə bilmişdi. Müasir siyasi-hüquqi təlimlərin görkəmli yaradıcılarının qənaətinə görə, hər bir rəhbər millətə real lider ola bilmir və əksinə, heç də hər liderin ölkəyə səmərəli rəhbərlik etməyi bacarmadığı halları olur. Bununla bağlı tarixdə və günümüzdə kifayət qədər misallar var. Bu səbəbdəndir ki, Heydər Əliyevin Ümummilli Lider kimi yüksək dövlətçilik-idarəçilik qabiliyyəti və bacarığı ilə dövlətə yüksək səviyyəli rəhbərliyi bir-birini üzvi surətdə tamamlayır. Məsələnin bu cəhətdən təhlili digər vacib məqamlarla yanaşı, Heydər Əliyevin Azərbaycanda müasir liderlik ənənəsinin banisi və həm də dünya miqyaslı lider olmasının əsas parametrlərini dərk etməyə şans yaradır. Heydər Əliyev liderliyi qüdrətli Ümummilli Lider səviyyəsinə qaldırmış nadir dövlət xadimlərindən biridir. Bu qeyri-adi liderlik istedadına malik olan dövlət xadiminin keçirdiyi çətin, məsuliyyətli və şərəfli yolun təcrübəsi əsasında Ulu Öndərin liderlik istedadının başlıca təşkiledici prinsiplərini müəyyənləşdirmək mümkündür.

Vurğulanan məqamların işığında Heydər Əliyevin liderlik istedadının müxtəlif kontekstlərdə təzahürlərinə diqqətlə nəzər yetirmək lazımdır. Hər şeydən əvvəl qeyd edək ki, Heydər Əliyev lider və dövlət başçısı kimi unikal, təkrarolunmaz və XX əsrdə kimsənin yaşamadığı ibrətamiz həyat və mübarizə yolu keçmişdir. Heydər Əliyev yeganə siyasi xadimdir ki, iki böyük tarixi-siyasi epoxada və keçid dövründə Ümummilli Lider statusuna yüksələ bilmişdir. Keçmiş sovet hakimiyyəti mərhələsində də, müstəqillik dövründə də Heydər Əliyev təkrarsız liderlik istedadına malik görkəmli dövlət xadimi olduğunu isbat etmişdir. Bu dahi şəxsiyyətin çətin və mürəkkəb tarixi şəraitdə Naxçıvan Muxtar Respublikasını işğaldan xilas etməsi, yaşatması və inkişaf etdirməsi, bu həssas regionda Azərbaycanın ərazi bütövlüyünü qoruyub möhkəmləndirməsi də əsl liderlərə xas olan böyük xilaskarlıq missiyasının yüksək səviyyədə həyata keçirilməsinin nümunəsidir.

Bəli, Heydər Əliyev hələ sovet dövründə elan olunmamış Ümummilli Lider kimi fəaliyyət göstərə bilmişdir. Və bu reallıq o dərəcədə məsuliyyətli idi ki, qısqanc SSRİ rəhbərləri içərisində həmin miqyasa çatmaq və onu qoruyub saxlamaq ayrıca qabiliyyət, xüsusi liderlik tələb edirdi. Heydər Əliyev Sovet İttifaqı dövründə SSRİ-yə daxil olan müttəfiq respublikalardan birinin liderliyindən Siyasi Büronun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini səviyyəsinə yüksəlmək qədər böyük missiyanı gerçəkləşdirmiş və özünün böyük liderlik istedadı ilə həm də qoruyub saxlamağı və yaşatmağı da uğurla həyata keçirmişdir.

Bu mənada, Heydər Əliyevin SSRİ dövründəki özünəməxsus Ümummilli Liderlik fəaliyyətinin əsas məqamlarının nəzəri-hüquqi baxımdan geniş tədqiq edilməsi ölkə və dünya üçün də əhəmiyyətlidir. Çünki ikinci elə bir nümunə yoxdur ki, ərazicə kiçik respublikada bütün fəaliyyət sahələri mərkəzdən idarə edildiyi şəraitdə ölkə rəhbəri SSRİ rəhbərliyinin razılığı olmadan real surətdə xalqa liderlik edə bilsin, onun təhlükəsizliyini, mövcudluğunu və inkişafını bacarmaq vəzifəsini qətiyyətlə həyata keçirsin.

Məhz buna görədir ki, Azərbaycan xalqı müstəqillik dövründə səsləndirilən "xalq-Heydər, Heydər-xalq" şüarını bütün qəlbi ilə dərhal qəbul etdi. Sovet dövründə Heydər Əliyevin xalqla bir olması təcrübəsi insanlarda bu qüdrətli Liderə böyük inam, yüksək ehtiram və etibarlılıq hissi yaratmışdı. Bu nəinki Azərbaycanın və Türk dünyasının siyasi ənənəsində, hətta dünya miqyasında tarixi hadisə idi.

Görkəmli dövlət xadimi Heydər Əliyevlə bağlı aparılan tədqiqatlarda vurğulanır ki, keçən əsrin 30-cu illərində Azərbaycan SSR-də təhlükəsizlik orqanlarında rəhbər vəzifədə olanların əksəriyyəti qeyri-azərbaycanlılardan ibarət idi. Heydər Əliyev özü də dəfələrlə ifadə edib ki, bu fakt respublikada narahatlıq yaradırdı. Həm də ona görə ki, həmin dövrdə Rusiyaya və başqa İttifaq respublikalarına xüsusi ixtisaslar üzrə təhsil almağa göndərilənlərin sayı çox az olduğu üçün və təhlükəsizlik xidməti üzrə respublikadan mərkəzə təhsil almaq məqsədilə göndərilənlərin içərisində azərbaycanlılar azlıq təşkil etdiyinə görə seçim və dəyişiklik etmək çətinliklər törədirdi. Həmin o proses belə davam etsəydi, gələcək illərdə Azərbaycan SSR-in rəhbərliyinə yad millətlərin nümayəndələri gələ bilərdi. Onda isə istər-istəməz, bütövlükdə, xalqın, ölkənin siyasi taleyi risk altına düşərdi. Vəziyyəti daha da ağırlaşdıran məqam kimi Ulu Öndər mərkəzin Azərbaycana qarşı digər müttəfiq respublikalarla müqayisədə ikili mövqe tutmasını görür və bütün bunlara qarşı mübarizə aparmaq üçün son dərəcə ağıllı, məsuliyyətli və mövcud ideologiyaya uyğun incə siyasət aparırdı. Heydər Əliyevin müdrik və uzaqgörən lider kimi böyük istedadı bu məsul vəzifənin öhdəsindən təhlükəsiz olaraq yüksək səviyyədə gəlməyə imkan yaratmışdır.

Heydər Əliyev xalqımızın xilası naminə səlahiyyət əldə etmək üçün əvvəlcə respublikada yüksək vəzifəyə təyinat aldı, birinci şəxs olaraq ölkəni idarə etməyə başladı. Sonrakı mərhələdə isə Sovet İttifaqının rəhbəri Leonid Brejnevi inandıraraq onun Azərbaycan SSR-ə fərqli münasibət bəsləməsini təmin edə bildi. Nəticədə, Heydər Əliyev Azərbaycan SSR-ə ittifaq miqyası üçün ayrılan təhsil üzrə kvotanı 500 nəfərə qədər çoxaltmağa nail oldu və təhsil almağa gedənlərin say tərkibində doxsan faizdən çox azərbaycanlı təmsil edildi. Bu, Ulu Öndərin respublika rəhbəri olmaqla yanaşı, xalqın lideri olmasının mühüm əlamətlərindən biri idi. Çünki başqa respublikalara təhsil almağa göndərilənlər bu müddətdə Azərbaycan rəhbərliyinin həyata keçirdiyi siyasət sayəsində respublikaya vətənpərvər və yüksəkixtisaslı kadrlar kimi qayıdırdılar. Kadrların azərbaycanlılaşdırılması Heydər Əliyev üçün onların öz ölkəsini, mənsub olduqları xalqı, onun tarixini bilmək və mədəniyyətini sevmək məramına vicdanla xidmət etmək mənasını daşıyırdı. Bu məqam Heydər Əliyevin sovet dövründə, mərkəzin nəzarətinin güclü olduğu, siyasi fəaliyyət alətlərinin kənardan təşkil edildiyi şəraitdə siyasi lider kimi, əslində, Ümummilli Lider səviyyəsinə yüksəlməsinin təsdiqi idi. Məhz bu addımlardan sonra Ulu Öndər yüksək dövlət idarəçiliyində azərbaycanlılaşdırma siyasətini yüksək səviyyədə həyata keçirməyi bacarmışdır.

Digər bir məqam Azərbaycan mədəniyyətinin təbliği və inkişafı ilə bağlıdır. Heydər Əliyev mərkəzdən bir sıra dairələrin yalnız Azərbaycanın ərazisinə və sərvətlərinə deyil, həm də milli kimliyinə, ədəbiyyatına və mədəniyyətinə, xüsusilə ana dilimizə qəsd etmək istədiyini dərindən bilirdi. Ona görə də müdrik və uzaqgörən dövlət xadimi bu hallara qarşı heyrətedici səviyyədə müasir, sivil, mədəni mübarizə üsulunu seçmişdi. Bu məsələdə Ulu Öndərin liderlik istedadı xüsusi məna kəsb edir. Heydər Əliyev keçmiş ittifaq səviyyəsində bir-birinin ardınca Azərbaycanın böyük ədəbiyyat və incəsənət xadimlərinin yubileylərini təntənəli surətdə təşkil etmiş, onların xidmətlərini geniş miqyasda ictimailəşdirmişdi. Heydər Əliyev bu yolla Azərbaycan yazıçı və şairlərini fəal şəkildə müxtəlif təzyiqlərdən qorumuş, nəinki onların həyatını xilas etmiş, gələcək fəaliyyətlərinə də yol açmağı bacarmışdı.

Azərbaycanın XX əsrdəki görkəmli siyasətçilərinə, xüsusən Nəriman Nərimanova qarşı mərkəzdə olan mənfi əhvali-ruhiyyəni

*Ardı 2-ci səhifədə*

Heydər Əliyev dəyişdirmişdi. Uzaqgörən müdrik rəhbər bununla kifayətlənməmiş, Azərbaycan dilini dövlət dili kimi hüquqi müstəvidə mərkəzə qəbul etdirmişdi. Konkret olaraq Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasına ana dilinin dövlət dili kimi daxil edilməsi nadir siyasi-tarixi hadisə idi. Onu deyək ki, həmin dövrdə başqa respublikalar üçün, məsələn, Ermənistan və Gürcüstan üçün adi sayılan, aksiom kimi qəbul edilən bu dəyərləri Azərbaycan üçün yalnız ciddi və ağıllı mübarizə ilə qəbul elətdirmək mümkün olurdu. Görkəmli dövlət xadimi Heydər Əliyev belə məsul vəzifələri siyasi müstəvidə əsl lider olaraq həyata keçirməyin öhdəsindən layiqincə gəlirdi.

Heydər Əliyevin dövlət rəhbərliyi ilə liderliyi yüksək səviyyədə sintez etdiyi başqa bir sahə asayişin qorunması, nizam-intizamın təmin edilməsi və respublikanın daxili sabitliyə qovuşdurulması ilə bağlıdır. Bu məqam həm də ona görə ciddi əhəmiyyət kəsb edir ki, asayişin təmini, ciddi intizam, möhkəm sabitlik tarixən dövlətçilik ənənəsinin mühüm sütunlarından biri olub. Heydər Əliyev bütün bunları sovet rejimi kimi yad bir siyasi mühitdə yüksək istedadla təmin etmişdi. Bunun üçün hüquq-mühafizə orqanları və ideologiya sistemi üçün milli kadrlar hazırlayıb yetişdirmiş və onların məqsədyönlü şəkildə yerləşdirilməsini, səmərəli fəaliyyətini formalaşdırmışdı.

Təcrübə göstərir ki, bu addımı ilə Heydər Əliyev faktiki olaraq sonrakı müstəqillik mərhələsində asayiş və sabitliyin təmin edilməsi üçün real baza hazırlayıb. Bununla hətta sovet dövründə belə, Azərbaycan dövlətçilik ənənəsinin vacib prinsiplərindən birini yaşatmış və möhkəmləndirmişdi. Həqiqətən, bu, heyrətedici liderlik istedadıdır! Bu addımlar Lider kimi taktiki və strateji məqamları konkret zaman-məkan çərçivəsində ümummilli maraqlara xidmət etməyə yönləndirən və bütün nəzarət sistemini "yarıb keçən" əsl siyasi liderlik xəttidir. Çünki siyasi sabitlik olmadan, anarxiya şəraitində böyük inkişafa nail olmaq qeyri-mümkündür.

Nəhayət, sovet dövründə Heydər Əliyevin Ümummilli Liderliyini təsdiq edən faktor iqtisadi sferada aparılan işlər oldu. Heydər Əliyev Azərbaycanın sosial, mədəni və iqtisadi cəhətdən lazımi səviyyədə inkişaf edə bilməyəcəyi fikrini mərkəzə sırımağa çalışanların qarşısını həm də ölkədə güclü iqtisadiyyat yaratmaqla kəsmişdi. Respublikaya rəhbərlik etdiyi müddətdə Azərbaycan 12 dəfə Keçici Bayraq almış, çoxlu sayda zavod və fabrikin inşasına nail olmuşdur. Respublikada hərtərəfli inkişaf etmiş sosial-iqtisadi infrastruktur yaranmışdı.

Bununla görkəmli dövlət xadimi Heydər Əliyev həm SSRİ-nin mərkəzi hökumətinə, həm Azərbaycanın düşmənlərinə, həm də bütün dünyaya sübut etdi ki, Azərbaycan SSR respublika kimi var olmağa və inkişaf etməyə qadirdir! Bu, Heydər Əliyevin siyasi lider və dahi rəhbər kimi tarixdə ən böyük qələbələrindən biri idi. Bu mənada, Heydər Əliyevin Azərbaycanı ilk xilas etməsi sovet dövründə oldu. Yəni XX əsrin 80-ci illərinə Heydər Əliyev artıq SSRİ-nin rəhbərlərindən biri olmaqla yanaşı, həm də Azərbaycanın Xilaskar Ümummilli Lideri kimi qədəm qoymuşdu.

Müasir siyasi nəzəriyyəçilər yazırlar ki, Ümummilli Liderləri böhran yetişdirir. Onlar xalq, millət və bütövlükdə, cəmiyyətin böyük və kəskin dönüş zamanlarında, miqyaslı dəyişiklik ərəfəsində, mövcud siyasi rejimin laxlaması və xaosun üstünlük təşkil etməyə başlaması şəraitində meydana çıxırlar. Daha doğrusu, əgər xalq və cəmiyyət buna qadirdirsə, onda öz içərisindən belə bir Lideri ortaya çıxara bilir. Heydər Əliyev nümunəsində XX əsrdə xalqın və ölkənin ən çətin dövründə dövlət başçısı ikinci dəfə özünün liderlik istedadını isbat etmişdir.

Məlumdur ki, XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan bir əsrdə ikinci dəfə məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdır. Həmin dövrdə ölkəyə səriştəsiz adamların rəhbərlik etməsi və düşmənin respublikamızın ərazi bütövlüyünə davamlı təcavüzü, bütövlükdə, xalqımızı "ölüm-qalım" faktı qarşısında qoymuşdu. Məhz belə çətin məqamda tale ikinci dəfə Heydər Əliyevə lider-xilaskar rolunu həyata keçirmək üçün imkan yaratmışdır. Xalqın tələbi və dəstəyi ilə 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilmiş Heydər Əliyev faktiki olaraq Xilaskar lider missiyasını həyata keçirmişdir.

Heydər Əliyev qısa müddətdə bu çətin tarixi mərhələdə də siyasi liderliklə Ümummilli Liderliyin və dövlət rəhbərliyi ilə ümummilli maraqların sintezini yarada bilən şəxsiyyət olduğunu sübut etmişdir. O, əvvəlcə Ermənistanın işğalçılıq siyasətini atəşkəs diplomatiyası ilə dayandırmışdır. Sonra daxili sabitlik təmin edilmişdir. Paralel olaraq Heydər Əliyev elə bir geosiyasi gediş etmişdir ki, ən böyük rəqiblər belə, çaşbaş qalmışdır. Heydər Əliyev mürəkkəb şəraitdə "Əsrin müqaviləsi"ni nəinki imzalamış, hətta qonşu Gürcüstanı geosiyasi baxımdan güzəştli addımlarla himayə etmişdir. Nəticədə, tarixi Bakı-Tbilisi-Ceyhan layihəsi reallaşmış, Gürcüstan bu tarixi dəyişdirən prosesdə tamhüquqlu ölkə kimi iştirak etmək imkanı qazanmışdır. Beləliklə, həm də Ermənistanın regionda təklənməsi siyasəti həyata keçirilmişdir. Azərbaycan isə daha geniş miqyasda qələbə əldə etmişdi. Heydər Əliyev düşünülmüş seçimi ilə sübut etmişdi ki, Azərbaycan Respublikası müstəqil dövlət kimi nəinki mövcud olmaq və hətta inkişaf etmək potensialına malikdir. Bu mesajı Kremldə ilk dəyərləndirənlərdən biri Rusiya Federasiyasının lideri Vladimir Putin oldu. Rusiyanın Prezidenti hakimiyyətə gələn kimi Azərbaycanı müstəqil dövlət olaraq tərəfdaş ölkə kimi qəbul etdi və əməkdaşlığa yaşıl işıq yandırdı. Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəllə etibarlı münasibətləri və qarşılıqlı əlaqələri də müstəqillik dövrünün çətinliklərinin aradan qaldırılmasında mühüm rol oynamışdır. Ümumiyyətlə, Heydər Əliyevin dünya miqyaslı lider kimi beynəlxalq aləmdə böyük nüfuza malik olması Azərbaycanı müstəqillik illərinin başlanğıcındakı böyük bəlalardan xilas etmiş, ölkənin yeni inkişafına mühüm stimul vermişdir. Nəticədə, Azərbaycan müstəqil dövlət kimi XX əsrin 90-cı illərinin ikinci yarısına artıq özünü təsdiq etmiş ölkə kimi qədəm qoymuşdur. Bu, Heydər Əliyevin Ümummilli Lider olmasını təcəssüm etdirən konkret faktdır. Bundan sonra dünyanın böyük siyasi liderləri Heydər Əliyevə Azərbaycanın Ümummilli Lideri kimi xüsusi ehtiramla yanaşdılar.

Bu prosesə Ulu Öndərin beynəlxalq təşkilatlarda, xüsusilə BMT-də etdiyi tarixi çıxışlar da sürətli təkan verdi. Heydər Əliyev XX əsr Azərbaycan dövlətçiliyi tarixində ilk dövlət başçısı və siyasi lider idi ki, beynəlxalq miqyaslı yüksək tribunadan dövlətin daxili və xarici siyasətinin prioritetlərini açıq surətdə təqdim edirdi. Bu baxımdan Heydər Əliyevin BMT-nin 49-cu sessiyasında (1994-cü il) və bu təşkilatın 50 illiyinə həsr edilmiş xüsusi toplantısında (1995-ci il) Azərbaycan dövlətçiliyi ilə əlaqədar, daxili və xarici siyasəti ilə bağlı irəli sürdüyü siyasi tezislərlə yanaşı, dünya siyasəti haqqında da çox dəyərli və strateji xarakterli fikirlər ifadə etməsi, fövqəlgüclər başəriyyətin təhlükəsizliyi və inkişafı üçün məsuliyyət daşımağa dəvət etməsi böyük uzaqgörənlik və cəsarət tələb edirdi.

Bunlarla yanaşı, Heydər Əliyevin liderlik istedadı müstəqillik mərhələsində onun cəmiyyəti birləşdirə bilən ideoloji sistem hazırlayıb həyata keçirməsi ilə əlaqədidir. Bu uzaqgörən sistem Azərbaycançılıq təlimi idi. Heydər Əliyev yeganə siyasətçidir ki, Azərbaycançılığı romantik-bədii ideyalar sferasında da ciddi siyasi-ideoloji sistemə çevirə bilmiş, ona konkret məzmun vermişdir. Ulu Öndər Heydər Əliyev Azərbaycançılığı ölkənin parçalanmasının qarşısının alınmasına, dövlətçiliyin müasir tələblərə uyğun inkişaf etdirilməsinə, cəmiyyətdə möhkəm və etibarlı birliyin yaranmasına, fərqli mədəniyyətlərlə ünsiyyətin gücləndirilməsinə və müstəqil dövlət quruculuğunun davamlı olaraq aparılmasına xidmət edən konsepsiya kimi meydana qoymuş və dönmədən həyata keçirmişdir.

Bununla Heydər Əliyev müstəqillik mərhələsində Ümummilli Liderliyin xilasedici, nizamlayıcı və qurucu aspektlərinin vəhdətinə nail olmuşdur. Dahi rəhbər bu yolla Azərbaycanda müasir mərhələdə yeni liderlik ənənəsinin əsasını qoymuşdur. Görkəmli dövlət xadiminin siyasi mühitdə tətbiq etdiyi Azərbaycan dili, Azərbaycan xalqı, Dünya Azərbaycanlıları və Azərbaycançılıq ideologiyası geniş mənada dövlət siyasəti kimi müəyyən edilmiş Azərbaycançılıq təliminin Heydər Əliyev modelinin dayaqlarıdır.

Bütün bunların fonunda Heydər Əliyevin lider və dövlət başçısı kimi böyük xidmətləri sırasında siyasi varisliyi yüksək səviyyədə təmin etməsinə ayrıca toxunmaq lazımdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi dünya və ölkə miqyaslı siyasi lider kimi yetişdirməklə Heydər Əliyev Azərbaycan xalqı və müstəqil dövlətimiz qarşısında misilsiz tarixi xidmət göstərmişdir.

Bir sıra tanınmış siyasi nəzəriyyəçilər belə hesab edirlər ki, ümummilli liderlər ancaq fəaliyyətləri müddətində deyil, həm də özündən sonrakı dövr üçün liderlik məktəbini yarada bilən şəxsiyyətlərdir. Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi müddətdə sübut etdi ki, o, Heydər Əliyev məktəbini yüksək səviyyədə mənimsəmiş və yeni tarixi epoxanın irəli sürdüyü çağırışları qabaqlamış, mühüm strateji zəkaya və praktik səmərəli fəaliyyət metodlarına malik olan dünya miqyasında yenitipli liderdir.

İlham Əliyev XXI əsrdə Azərbaycanı yüksək inkişaf etmiş müstəqil dövlətlər sırasına çıxarmağa tam qadir olan əsl liderdir. Bununla da Ulu Öndərin sovet dövründə Azərbaycanı ölkə kimi, XX əsrin 90-cı illərində isə respublikamızı müstəqil dövlət kimi xilas etməsi prosesi Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla və qətiyyətlə həyata keçirilmişdir. Bu tarixi mərhələdə İlham Əliyev işğalçı Ermənistan üzərində savaşı qazanaraq sübut etdi ki, Azərbaycan nəinki müstəqil dövlət kimi inkişaf etməyə qadirdir, o həm də regionun aparıcı dövləti və qalib lideri olmaq qüdrətindədir.

Bu gün Prezident İlham Əliyevin sayəsində Azərbaycan Respublikası regionun lideri kimi dünya səviyyəsində aktiv fəaliyyət göstərmək imkanına sahib olan qalib dövlətdir. Bu çoxcəhətli fəaliyyət böyük iqtisadi inkişafı, milli mədəniyyəti, multikulturalizmi, enerji layihələrini, sivilizasiyalar, mədəniyyətlər və dinlərarası münasibətlərin təşkilini, regionda balansı saxlaya biləcək hərbi qüdrəti təmin etmək məsələlərini əhatə edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın çoxəsrlik tarixi salnaməsinə Zəfər günü həqiqətlərini yazmaqla bərabər, həm də ölkəmizi bütün sahələr üzrə irəli aparmağı bacaran, beynəlxalq aləmdə böyük nüfuza malik qüdrətli lider kimi qəbul olunur. Möhtərəm Prezidentin qətiyyətlə həyata keçirməyə başladığı Böyük Qayıdış proqramı həm Qarabağın, həm də geniş mənada Azərbaycanın yeni sabahlarını aydın surətdə təsəvvür etməyə imkan verir. Bütün bunlara görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu gün dünyanın söz sahibi olan əsl liderlərindən biri kimi qəbul edilir.

Göründüyü kimi, müstəqil Azərbaycan dövləti Ümummilli Lider Heydər Əliyevin mükəmməl dövlətçilik təcrübəsi və qətiyyəti sayəsində özünün əsas siyasi-ideoloji və iqtisadi dayaqlarını qurub möhkəmləndirmişdir. Prezident İlham Əliyevin liderliyi ölkəmizi müasir dövrün yeni tarixi inkişaf mərhələsinə çatdırmışdır. Bu gün Prezident İlham Əliyevin simasında müstəqil Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatında, Avropa Şurasında, Qoşulmama Hərəkatında, Türk Dövlətləri Əməkdaşlıq Şurasında, Ümumdünya Səhiyyə Təşkilatında, digər mötəbər beynəlxalq qurumlarda tutduğu mövqe, qazandığı böyük nüfuz yalnız superdövlətlərlə müqayisə oluna bilər.

*Bütün bunlar göstərir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müasir dünyanın güclü dövlət liderlərindən biridir. Azərbaycan Respublikası Prezident İlham Əliyevin liderliyi ilə böyük sabahlara doğru inamla addımlamaqda davam edir.*

**Seymur TALIBOV,**
***Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent***
***"Azərbaycan" qəzeti***
***4 iyun 2021-ci il***

## *"Sabahın tədqiqatçıları"* layihəsinə yekun vuruldu

*Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və AMEA Naxçıvan Bölməsinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə "Sabahın tədqiqatçıları" layihəsinin yekunu ilə bağlı tədbir keçirilib.*



Tədbirdə Təhsil naziri Rəhman Məmmədov muxtar respublikada təhsilin inkişafına göstərilən dövlət qayğısından danışıb.

Təhsil naziri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə 2020-2021-ci tədris ilindən etibarən muxtar respublikanın təhsil müəssisələrində STEAM təhsil metodunun tətbiqindən, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 7 iyun tarixdə imzaladığı "Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında" sərəncamın əhəmiyyətindən bəhs edib.

Təhsil naziri "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində görülən işlərlə bağlı vurğulayıb ki, 2019-2020-ci tədris ilindən tətbiq edilən layihə çərçivəsində ötən dövr ərzində Naxçıvan şəhərində yerləşən ümumtəhsil məktəblərindən xüsusi istedad və qabiliyyəti ilə fərqlənən şagirdlər AMEA Naxçıvan Bölməsinin alimləri tərəfindən elmi himayəyə götürülmüşdür. Şagirdlərlə birgə laboratoriyalarda tədqiqatlar aparılmış, məruzə, tezis, referat və hesabatlar hazırlanmışdır. Ötən dövr ərzində tədqiqatların nəticələrindən ibarət sərgilər təşkil olunmuş, onlarla müsabiqə və yarışlar, elmi-təcrübi konfrans və seminarlar keçirilmişdir. Bu günədək, ümumilikdə, 50 elmi rəhbərin və 95 şagirdin iştirakı ilə Naxçıvan Muxtar Respublikası üçün əhəmiyyətli olan 53 layihə üzrə tədqiqatlar aparılmışdır.

Təhsil naziri təhsilə göstərdiyi diqqət və qayğıya görə təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.

Tədbirdə çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev "Sabahın tədqiqatçıları" layihəsinin gənc nəsildə elmə marağın formalaşdırılmasında, innovativ biliklərin təkmilləşdirilməsində və praktikaya tətbiqində daşıdığı önəmindən danışıb. Savadlı, intellektual gənc nəslin formalaşdırılmasının prioritet məsələlərdən olduğunu qeyd edən bölmə sədri cəmiyyətin inkişafında elm və təhsilin, ixtisaslı kadr hazırlığının vacibliyini vurğulayıb.

Tədbirdə "Sabahın tədqiqatçıları" layihəsinin icraçısı, Naxçıvan Şəhər Təhsil Şöbəsinin baş məsləhətçisi Gülxanım Orucova 2020-2021-ci tədris ilində "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində görülən işlər və qazanılan uğurlar barədə tədbir iştirakçılarına məlumat verib. Qeyd olunub ki, bu tədris ilində 23 elmi rəhbərin və 45 şagirdin iştirakı ilə 23 layihə işlənib hazırlanıb və 2 layihə üzrə işlər davam etməkdədir. Layihənin iştirakçılarından Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin X sinif şagirdi "Sabahın alimləri" X respublika müsabiqəsində III yerə, Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin şagirdi XI beynəlxalq elmi-praktik konfransda I yerə layiq görülüb, digər layihə üzvlərindən 20 nəfəri öz layihələri ilə beynəlxalq müsabiqələrin müxtəlif dərəcəli sertifikatları ilə mükafatlandırılıb. 10 layihə iştirakçısının məqaləsi yerli və xarici mətbuatda dərc olunub. Ümumilikdə, layihə çərçivəsində beynəlxalq müsabiqələrdə 4 layihə I, 3 layihə II, 3 layihə isə III yerə layiq görülüb.

Tədbirdə "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində şagirdlərin elmi yenilik və təcrübi vərdişlərə yiyələnmələri üçün müşahidələr aparmağın və onların nəticələrini ümumiləşdirməyin yollarından və layihə çərçivəsində görülən işlərdən bəhs edən videoçarx izlənilib.

Sonra "Sabahın tədqiqatçıları" layihəsinin iştirakçıları apardıqları tədqiqat işləri barədə məlumat veriblər.

Sonda layihə iştirakçılarına və onların elmi rəhbərlərinə diplomlar təqdim olunub. "Sabahın alimləri" X respublika müsabiqəsində III yerin qalibi, X sinif şagirdi Zümrüd Babazadə, müsabiqənin iştirakçıları olan şagirdlərdən Səma Abdullayeva, Bəhriyyə Mustafayeva, Nurgün Allahverdiyeva, Bəxtiyar İsmayılov, İnci Nəsirova, "Sabahın alimləri" X respublika müsabiqəsində Biologiya fənni üzrə III yerin qalibi olmuş layihənin elmi rəhbəri – biologiya üzrə fəlsəfə doktoru Surə Rəhimova diplom və medallarla təltif olunublar. Şagirdləri muxtar respublika və ölkə səviyyəli yarışlarda uğur qazandığına görə Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin kollektivinə, həmçinin "Sabahın tədqiqatçıları" layihəsinə verdiyi təşkilati dəstəyə görə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin kollektivinə Təhsil Nazirliyinin təşəkkürnaməsi verilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

Şərq qapısı – 100

## Nasir, tərcüməçi və jurnalist Əvəz Sadığın "Şərq qapısı" haqqında məqalələri

*XX əsrin birinci yarısında yaşayıb-yaradan Əbülfəz Əli oğlu Sadıqov (1898-1956) "Əvəz Sadıq" imzası ilə Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində nasir, tərcüməçi və jurnalist kimi özünəməxsus iz buraxan tanınmış yaradıcı şəxsiyyətlərdən biri olmuşdur. Onun fəaliyyəti daha çox mətbuatla bağlı olmuş, publisistika isə yaradıcılığının mərkəzində dayanmışdır. "Kommunist", "Şərq qapısı", "İnqilab və mədəniyyət", "Şərq qadını", "Vətən yolunda" və "Kirpi" kimi mətbuat orqanlarındakı müxbir, məsul katib və redaktorluq fəaliyyəti bu qənaətimizi əsaslandıran faktlardır.*



"Şərq qapısı"nın ilk redaktorlarından biri olan Ə.Sadıq 1923-cü ildən 1928-ci ilədək, yəni Azərbaycan Dövlət Pedaqoji İnstitutuna qəbul olunanadək öz publisistik yazılarını "Ə.Sadıq Ordubadi", "Ə.Sadıqov Ordubadi", "Müəllim Ə.Sadıq Ordubadi", "Müəllim Ə.Sadıq", "Ə.Sadıq", "Ə.S.Ə." və "Ə.S." imzaları ilə daha çox "Şərq qapısı" qəzetində dərc etdirmişdir. Ə.Sadığın həmin illərdə "Şərq qapısı"nda çap olunan 25 yazısını aşkara çıxarmışıq. Bu yazıların əksəriyyəti "Şərq qapısı" qəzeti və onun müxbirlərinin vəzifələri, Naxçıvanda teatr və maarif işləri, təhsil məsələləri, ədəbiyyat cəmiyyətlərinin təşkili mövzularına həsr olunmuşdur.

1921-ci ildən nəşrə başlayan "Şərq qapısı" qəzeti o dövrün ziyalıları üçün mötəbər bir tribuna olmalı idi. Bu məqsədlə yerli ziyalılar mərkəzi hökumətin köməyinə arxalanaraq, birinci növbədə, qəzetin varlığını qoruyub saxlamağa və geniş xalq kütləsi içərisində yayılmasını təmin etməyə ciddi səy göstərirdilər. Belə ziyalılardan biri də Ə.Sadıq idi.

Ə.Sadığın "Şərq qapısı" qəzetinin 1923-1927-ci il nömrələrində qəzetin nəşri və onun müxbirlərinin vəzifələri haqqında "Qəzetəmizin yazı və mətbuat tarixinə bir nəzər", "Qəzetəmiz və məktəb", "Müvəffəqiyyət", "Kənd təsərrüfatını mədənləşdirmək işində müxbirlərin vəzifəsi", "Şərq qapısı"nın getdiyi və gedəcəyi yol" adlı beş məqaləsi dərc olunmuşdur. Bu məqalələr yüksək peşəkarlıq səviyyəsində yazılmışdır. Məqalələri oxuduqca hiss olunur ki, müəllif dünya və Azərbaycan mətbuat tarixinə yaxından bələddir və bu bələdliyindən istifadə edərək, hətta mətbuatla əlaqəsi olmayan oxucuların da diqqətini cəlb etməyə, xüsusilə "Şərq qapısı" qəzetinin oxunması və geniş dairədə yayılmasına səy göstərir. Bu baxımdan müəllifin "Qəzetəmizin yazı və mətbuat tarixinə bir nəzər" adlı məqaləsi diqqətəlayiqdir. Məqalədə əvvəlcə oxucuların diqqəti mətbuatın əhəmiyyətinə yönəldilir: "Təkamül mədəniyyətdə o zaman ola bilərdi ki, hər bir məmləkətdə doğan yazılar başqa nöqtələrə də intişar etsin, hər bir kəs digərinin nə növ ilə dolanmasını bilsin, digərinin təbiət və həyat ilə nə cür mübarizə aparmasına vaqif olsun". Sonra müəllif dünyada ilk mətbəənin XV əsrdə manisalı İohan Kotenberq tərəfindən icad edilməsini xatırladır, Rusiya və Türkiyədə fəaliyyətə başlayan ilk mətbəələrdən bəhs edir və oxuculara qəzetin mahiyyətini dərk etdirmək üçün yazır: "Mədəni millətlər qəzetə qiraətinə o qədər alışmışlar ki, onlardan bir şəxs bir gün belə, qəzetə qiraətinə müvəffəq olmazsa, siqara içmək müddətini qaib edən bir kəs kibi kəndini sıxıntıda görər".

Axırda müəllif sözü "Şərq qapısı" qəzetinin nəşri və onun yaşaması üçün köməyə ehtiyacı olmasının üzərinə gətirir: "Naxçıvan ölkəsi isə yalnız iki aydan bəri qəzetə intişarına əhəmiyyət verməyə başlamışdır. "Füqəra səsi", "Gənclər həyatı", "Şərq qapısı" namları ilə qəzetlər intişarına ümmət göstərilmişdir. Əhalinin maddi və mənəvi köməyi görülməyində gənc ikən qapanmışlar. Şimdi ikinci kərə "Şərq qapısı" yaradılır. Bu yaradılmış qəzetə hər vətəndaşımızın və ziyalılarımızın həmiyyətinə möhtacdır".

Ə.Sadıq "Şərq qapısı"na həsr etdiyi yazılarında o vaxt Naxçıvanda yeganə mətbuat orqanı olan bu qəzetin əhəmiyyətindən və təsir gücündən də bəhs etməyi vacib sayırdı. Onun fikrincə, "Şərq qapısı" "cümhuriyyətimizin həm "Kommunist"i, həm "Raboçi"si, həm "Gənc işçi"si, "Şərq qadını" olaraq bütün başqa qəzetə və məcmuələrə məadil (bərabər) sayılır ki, bunlar Azərbaycan dairəsində oynadığı rolları Naxçıvan dairəsində "Şərq qapısı" kəndisi təklikdə yapır".

Ə.Sadıq çalışırdı ki, "Şərq qapısı" tirajını artırmaqla daha geniş oxucu kütləsi qazansın, onun ətrafına səriştəli müxbirlər toplansın, əhali arasında təbliğat-təşviqat işlərini artırsın və hər sahədə işlərin canlandırılmasına təsir göstərsin.

Ə.Sadıq bu işlərin həyata keçirilməsində kənd və şəhər müəllimlərinin, ümumiyyətlə, məktəbin üzərinə düşən vəzifələrin böyük əhəmiyyətə malik olduğunu vurğulayır və "Müəllim Ə.Sadıq Ordubadi" imzası ilə dərc etdirdiyi "Qəzetəmiz və məktəb" adlı məqaləsində (1923) müəllimlərə müraciət edərək yazırdı: "Qəzetəmiz hər bir köylümüzə yavuqdur... Əgər qüvvəli müəllimlərimiz həmiyyət göstərsələr, məktəb həyatından ara-sıra qəzetədə bəhs etsələr, zəif müəllimlərimizə nə qədər kömək olar... Əgər böylə olursa, məktəb həyatımız dirilər, dərslərimiz isə ən gözəl surətdə gedə bilər. Hər bir məktəbə "Şərq qapısı" qəzetəsinin bir abunəsinin alınmasını maarif müdiriyyətindən təmənna edirik".

"Şərq qapısı"nın 100-cü nömrəsinin çıxması münasibətilə yazdığı "Müvəffəqiyyət" adlı məqaləsində isə Ə.Sadıq qəzetin qazandığı uğurlardan söz açır və bu uğurları qoruyub artırmaq üçün vətəndaşların köməyinə ümidvar olduğunu bildirirdi: "Yüz nömrədə qəzetəmiz müxtəlif şəkillərdə olaraq birisi o birisindən daha islah edilmiş, daha müntəzəm bir surətlə çıxacağına olan ümidini imdidən təmin ediyor. Gözlənilən ümidi əldən qaçırmamaq üçün ölkəmizin bütün vətəndaşlarının var qüvvələri ilə çalışmaqları lazımdır".

O, 1927-ci ildə dərc etdirdiyi "Şərq qapısı"nın getdiyi və gedəcəyi yol" adlı məqaləsində isə qəzetin redaktoru kimi bu mətbuat orqanının taleyi barəsində öz arzularını belə ifadə edirdi: "Şərq qapısı" ölkəmizin hər tərəfində oxunmalı, hər tərəfini öz sütunlarında göstərməlidir. Bunun üçün... qəzetəmizin tirajını mindən üç minə qədər qaldırmaq və "Şərq qapısı" ətrafında həqiqi müxbirlər ordusu toplamaq yolunda çalışmalıyıq".

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamı bu mətbu orqanın muxtar respublikamızın ictimai-siyasi, sosial həyatındakı, jurnalistikanın inkişafındakı əvəzsiz xidmətlərinin yeni müstəvidə və daha əhatəli tədqiq olunmasına geniş imkanlar açır. Ə.Sadığın "Şərq qapısı"na aid yazıları da həmin qəzetin nəşrə başlaması və ilk illərinin inkişaf yolu haqqında tədqiqatçılara dəyərli məlumatlar verən mənbə kimi elmi əhəmiyyətə malikdir.

**Fərman XƏLİLOV**
*AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru*

## Əhalinin pensiya təminatı diqqət mərkəzində saxlanılır

*Muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlərin davamlı inkişafı əhalinin bütün təbəqələrinin, həmçinin əmək pensiyaçılarının rifah halını yüksəltmiş, onların sosial müdafiəsini gücləndirmişdir.*

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən ötən ay ərzində əmək pensiyaçılarına pensiya ödənişinin maliyyələşdirilməsi üçün müvafiq tədbirlər həyata keçirilmiş, 15 milyon 601 min manat vəsait pensiyaçıların plastik bankomat kart hesablarına köçürülmüş və ya yerlərdə poçt bölmələri vasitəsilə ödənilmişdir. Eyni zamanda əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin ödənilməsi də diqqətdə saxlanılmış, həmin şəxslərə 337 min manat vəsait ödənilmişdir.

Ötən ay pensiya hüququ yaranmış 140 vətəndaşa fond tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmək pensiyası təyin olunmuşdur. Bunlardan 109-u yaşa görə, 11-i sağlamlıq imkanları məhdudluğa görə, 20-si isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmış vətəndaşlardır. Pensiya təyin olunmuş vətəndaşların 71-i kişi, 69-u isə qadındır. Eyni zamanda fərdi uçot sistemi sahəsində də işlər davam etdirilmiş, yeni əmək fəaliyyətinə başlayanlara fərdi şəxsi hesablar açılmışdır.

Müvafiq dövr ərzində aidiyyəti qurum tərəfindən məcburi dövlət sosial sığortahaqqı üzrə 8 milyon 254 min 200 manat məbləğində vəsait yığılaraq fondun xəzinə hesabına köçürülmüşdür. Pensiya və müavinətlərin ödənişinə ayrılan vəsaitin 51,7 faizi məcburi dövlət sosial sığortahaqqı şəklində muxtar respublikada yığılmışdır. Hesabat ayında 5 hüquqi və 186 fiziki şəxs məcburi dövlət sosial sığorta ödəyicisi kimi uçota alınmışdır.

Ötən ay "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 aprel tarixli Sərəncamının icrası operativ qaydada təmin olunmuş, bu kateqoriyadan olan 11 nəfərə 1500, 439 nəfərə isə 750 manat məbləğində birdəfəlik maddi yardım ödənilmişdir.

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti*

***2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək bütün dünyanın diqqətini Qafqaza çəkən hərbi əməliyyatlar Azərbaycan xalqının son 200 illik tarixinə ən ali və ən parlaq zəfər səhifəsi kimi yazıldı. Azərbaycan qısa müddət ərzində öz ərazi bütövlüyünü təmin etmək üçün əzəli-əbədi torpaqlarını geri qaytarmağa müvəffəq oldu. Müzəffər Ordumuz öz dəyanətli Ali Baş Komandanının rəhbərliyi, xalqımızın yüksək vətənpərvərlik əzmi ilə birləşərək düşmən tapdağında olan doğma Vətən torpaqlarını ermənilərdən təmizlədi, Qarabağ münaqişəsinə son qoydu. Bu şərəfli zəfərin şirinliyini dadmaq isə Azərbaycana 3000-dən artıq şəhidin, minlərlə qazimizin qanları-canları bahasına başa gəldi.***

## Bir ömürlük qürur hissi yaşatdılar



Torpaqlarımızın azadlığı uğrunda rəşadətlə döyüşərək qazi olmuş Elşad Əlirzayevin başına gələnləri özündən başqa kimsə dəqiqliklə anlada bilməz: – 2001-ci ildə Babək rayonunun Nehrəm qəsəbəsində dünyaya gəlmişəm. Orta məktəbi Nehrəm qəsəbəsində oxumuşam. Qardaşım hərbçi olub. Qazi olduqdan sonra ən böyük mənəvi dəstəyi də məhz ondan görmüşəm. "Bundan sonra sənin gəzən ayağın mən olacağam, lazım gələrsə, ən ağır döyüşlərə belə, atılaraq sənin də əvəzindən döyüşüb qisasını alacaq, düşməni məhv edəcəyəm", – deməsi ən böyük təsəllimdir. Mən qardaşıma baxaraq həvəslənmişəm və bu sahəyə marağım yaranıb. Elə buna görə də bu sahə üzrə təhsil almaq qərarına gəldim. 2015-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə qəbul oldum. Oranı bitirdikdən sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilimi davam etdirdim. Sentyabrın 27-də Azərbaycan Milli Ordusu əks-hücum əməliyyatlarına başlayan ilk gündən döyüşlərdə könüllü olaraq iştirak etmişəm. Döyüş əhvali-ruhiyyəsi çox yüksək idi. Rütbəsindən asılı olmayaraq, hamı döyüşə can atırdı. Bütün döyüşçülər qisas hissi ilə alışıb-yanırdılar. Ona görə, ancaq irəli getməyi düşünürdük. Düşmənlər də çox güclü müdafiə qurmuşdular. Lakin biz irəlilədikcə qarşımızda dayana bilməyib geri çəkilirdilər. Çəkildikdən sonra isə tərk etdikləri mövqeləri aramsız artilleriya atəşinə tuturdular. Hər müdafiə səddini əsgərlərimizin igidliyi sayəsində alırdıq. Lakin noyabrın 4-də gedən döyüşlərin birində düşmən mövqelərinə doğru irəliləyərkən minanın partlaması nəticəsində sağ ayağımı itirdim. Bu gün fəxr edirəm ki, torpaqlarımızın geri qaytarılmasında mənim də əməyim olub. Bu əməyim dövlətimiz tərəfindən qiymətləndirilib və "NAZ Lifan" markalı avtomobillə təmin olunmuşam. Hər zaman dövlətimizin diqqət və qayğısını öz üzərimdə hiss edirəm. Bu yaxınlarda "YAŞAT" Fondu tərəfindən Türkiyə Respublikasına göndəriləcək protez ayaqla təmin olunacağam. Mən Vətən müharibəsinin iştirakçılarına, şəhid ailələrinə, qazilərə göstərilən qayğıya görə dövlətimizə minnətdarlığımı bildirirəm.

II Qarabağ müharibəsinin fatehlərindən biri olan Elşad Əlirzayev öz ordusu, xalqı, milli mənliyi uğrunda qəhrəmancasına döyüşdüyü üçün Ali Baş Komandan tərəfindən "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Qəhrəman, hamının haqqında ürək dolusu danışdığı bir oğulun valideyni olmaq, fəxr duymaq hər bir ata-ana üçün ən yüksək şərəfdir. Bəli, biz məhz bu igidlərin sayəsində adımızı qızıl hərflərlə tarixə yazmış olduq. Və indi geriyə qalan təkcə zəfər sevincimiz deyil, şəhid və qazi qardaşlarımızın qələbə naminə düşmənə qarşı sərgilədikləri unudulmaz qəhrəmanlıq və kişilik salnamələri də bizimlədir. Hər bir əsgərimizin qələbə əhvalını, igid hərbçilərimizin qəhrəmanlıq salnaməsini gələcəyə daşımaq, bu qürur, fəxr dolu şanlı zəfər xatirələrini sonrakı gəncliyə aşılamaq hamımızın vətəndaşlıq borcudur.

**Aytac CƏFƏRLİ**

## Teleradiolarda peşəkarlıq səviyyəsi yüksəldilir

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası may ayında muxtar respublikanın teleradiolarının fəaliyyətini izləyərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, təsdiq olunmuş Dövlət proqramları və Tədbirlər planlarından irəli gələn vəzifələrin icrasını diqqətdə saxlayıb.

Naxçıvan Televiziyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirak etdiyi tədbirlərə, Dövlət proqramlarının icrası ilə bağlı görülən işlərə həsr olunmuş 7 telematerial hazırlanıb. Televiziyanın öz teleməhsulları, həmçinin sənədli filmlər və dublyaj redaksiyasının materiallarının həcmi efirin 72 faizini təşkil edib. Bu dövrdə 111 veriliş efirə təqdim olunub.

May ayının 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri ilə bağlı Naxçıvan Televiziyasında geniş videomaterial efirə təqdim edilib.

Şuşa şəhərində ölkə rəhbərinin iştirakı ilə möhtəşəm "Xarıbülbül" musiqi festivalı, ölkə tarixində ilk dəfə olaraq Naxçıvan şəhərində keçirilən şahmat üzrə Azərbaycan çempionatı barədə geniş materiallar hazırlanaraq efirə təqdim edilib.

May ayında Naxçıvan radiosunun müxtəlif istiqamətlər üzrə monitorinqi aparılıb. Bu ay ərzində radio 487 saat efirdə olub. Ümumi efirin 43,6 faizini radionun öz istehsalı olan verilişlər təşkil edib.

Şuranın tədbirlər planında qarşıya qoyulmuş tələblərdən biri də teleradiolarda ədəbi dil normalarının qorunmasına diqqəti artırmaqdır. Yaxşı haldır ki, may ayında Naxçıvan radiosunda dinləyicilərə yeni layihə – "Ana dilim" verilişi təqdim olunub.

Bəhs olunan dövrdə "Kanal 35" televiziyası tərəfindən məktəblilərin bilik və bacarıqlarının artırılması məqsədilə "Dərs vaxtı" teledərslərin 78 sayı, "Peşə təhsili" ilə bağlı 5 sayı, STEAM dərslərinin 2 sayı efirə təqdim edilib.

Televiziya əməkdaşları tərəfindən may ayında "Qalib müəllim" adlı videohekayə hazırlanıb. 44 günlük Vətən müharibəsində qazandığımız siyasi və hərbi qalibiyyətlə yanaşı, mənəvi qələbəmiz həmin telematerialda əks olunub. Material tamaşaçı auditoriyasını qazanmaqla yanaşı, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə ümumrespublika üzrə "Qalib müəllim" müsabiqəsinə təqdim olunaraq I yerə layiq görülüb.

"Naxçıvanın səsi" radiosu 424 saat efirdə olub və efir müddətinin 70 faizini canlı yayım proqramları təşkil edib. May ayının 10-dan etibarən radio gün ərzində 16 saat yayımlanmağa başlayıb.

Naxçıvan Dövlət Universiteti Televiziyasının may ayındakı yaradıcı işi aprel ayına nisbətən uğurlu sayıla bilər.

Şura tərəfindən bəhs edilən dövrdə sosial platformalarda Naxçıvanla bağlı 900-dən çox foto və video, həmçinin xəbər paylaşılıb.

*Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası*



# Oxucu məktubları



## Dövlətimizə minnətdarlıq



*Redaksiyaya salam!*

Sədərək rayonunun Dəmirçi kəndi özünəməxsus gözəl təbiəti, yaşıllığı, meyvəli bağları, təmiz havası, torpağına bağlı zəhmət və elm adamları, ziyalıları ilə seçilən yaşayış məntəqələrindən biridir. Bu gün kənd sakinləri böyük sevinc içərisindədir. Belə ki, muxtar respublikada həyata keçirilən quruculuq tədbirlərindən Dəmirçi kəndinə də pay düşüb. Yollarımıza asfalt örtük döşənib, insanların rahatlığı təmin olunub, ikimərtəbəli yaraşıqlı kənd mərkəzi istifadəyə verilib.

Burada müxtəlif təşkilatların fəaliyyətinə şərait yaradılıb, əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi diqqət mərkəzində saxlanılır. Kənddə xidmət mərkəzi də istifadəyə verilib, burada bir neçə kənd sakini işlə təmin olunub.

Kəndimiz Sədərək rayonunun tərkibinə verildikdən sonra həyata keçirilən tədbirlər bir qədər də artıb. Belə ki, son günlər Naxçıvan-Sədərək magistral yolunun Dəmirçi kəndindən keçən hissəsində yol kənarında salınan yaşıllıqlar biz sakinlərin ürəyincədir. Bu məktubu sizə ünvanlamaqla bir kənd sakini kimi sevinc və minnətdarlıq hisslərimi bölüşmək istəyirəm. Kənd əhalisi münbit torpaqlarımızdan səmərəli istifadə etmək üçün Dəmirçiyə daha yaxın olan "Naxçıvan Aqrolizinq" Sədərək rayon bazasının imkanlarından yararlanır.

Bununla da ulu babalarımızdan miras qalmış torpağı əkib-becərir, bağ-bağçalar salır, heyvandarlıq və arıçılıqla məşğul oluruq. Yaradılan bütün bu şərait dövlətimizin kənd adamlarına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

**Əbülfəz MƏMMƏDOV**
***Sədərək rayonu, Dəmirçi kənd sakini***

## Yüzillik yubileyiniz mübarək!

***Salam, hörmətli "Şərq qapısı" qəzetinin kollektivi. Sizi qəzetin 100 illik yubileyi münasibətilə təbrik edir, yaradıcılıq uğurları arzulayıram!***

Məlum olduğu kimi, bu il iyunun 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncam imzalamışdır. Ölkə mətbuatında hər zaman öz nüfuzu ilə seçilmiş qəzetin 100 illik yubileyinin yüksək səviyyədə qeyd olunması məqsədilə bağlı imzalanan bu sərəncam Ali Məclis Sədrinin mətbuata böyük qayğısının, diqqətinin nəticəsidir.

"Şərq qapısı" qəzeti mənim həyatımda xüsusi yeri olan və daim izlədiyim mətbu orqandır. Hələ gənc yaşlarımdan bu qəzetin daimi abunəçisi olmuş, burada dərc olunan xəbər və məqalələri, müəllif yazılarını sevə-sevə oxumuşam. Bəlkə də bu bağlılıqdandır ki, müxtəlif dövrlərdə qəzetlə kənar müəllif kimi əməkdaşlıq da etmişəm. Mənə çox yaxın, doğma olan bu qəzet haqqında xatirələrim, təəssüratlarım çox böyükdür və onlar bir məktuba sığan deyil. Amma ümumi olaraq onu deyə bilərəm ki, "Şərq qapısı" qəzeti fəaliyyət göstərdiyi bütün dövrlərdə Naxçıvanın güzgüsü olub. Bu qəzet vasitəsilə biz qədim diyarımızın tarixinə, mədəniyyətinə, təbii gözəlliklərinə bələd olmuşuq, öyrənmişik, sevmişik. Fürsətdən istifadə edib bu məktub vasitəsilə bütün kollektivi bir daha yubiley münasibətilə təbrik edir, hər birinizə Naxçıvanımızın müasir tarixinin yazılmasında uğurlar arzu edirəm.



**Firudin SÜLEYMANOV**
***Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri***

## Naxçıvan icbari tibbi sığortanın tətbiqi sahəsində də nümunədir

Naxçıvanda icbari tibbi sığortanın uzun zamandır, fəaliyyət göstərdiyini eşitmişdim. Ona görə də anamın müalicəsi üçün Bakıdan Naxçıvana gəlməli oldum. Anju və stend qoyulması üçün hələ bir il əvvəl Bakıda maraqlandığım xəstəxanalardan bir neçəsi 5000 manata yaxın ödəniş istəmişdi. Ona görə də Naxçıvana xəstəxana xərcləri üçün hazırlıqlı gəlmişdim.



Öncə Şərur Rayon Mərkəzi Xəstəxanasına getdik. Bir neçə dəqiqə ərzində Tibbi xidmətə göndəriş vərəqəsi yazıldı və Naxçıvan şəhərindəki Diaqnostika Müalicə Mərkəzinə göndərildik.

Burada icbari tibbi sığortaya görə EXO, EKQ, rentgen müayinəsi, anju, stend qoyulması və digər tələb olunan bütün prosedurlar ödənişsiz aparılır.

Anama lazım olan bütün müayinələr dərhal aparıldı və müalicəsi üçün prosedurlara başlanıldı.

Mənim üçün ən təəccüblüsü xəstəxanaya girəndən çıxanacan bir manat da olsa, ödəniş tələb edilməməsi oldu. Halbuki Bakıda eyni prosedur üçün ən azından 4-5 min manat ödəməli olacaqdım. Üstəlik, burada Naxçıvan qeydiyyatı olan hər kəsin icbari tibbi sığortadan yararlana bilməsi ölkədə ən gözəl nümunədir.

İcbari tibbi sığortanın fəaliyyət göstərməsi və saat mexanizmi kimi dəqiq işləməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun gərgin əməyinin nəticəsidir. Buna görə cənab Sədrə minnətdarlığımı bildirirəm.

Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin həkim-kardioloqu dəyərli Nail Mehbalıyevə, Təranə xanıma, gülərüz və səmimi kollektivinə minnətdaram.

**Əpoş VƏLİYEV**
***Bakı şəhəri***

## İncəsənətimiz qarşısında xidmətləri olanlar unudulmur

*Salam, hörmətli redaksiya!*

Biz yaşlı nəslin həvəslə müntəzəm mütaliə etdiyi mətbuat orqanlarından biri "Şərq qapısı" qəzetidir. Bu il yüzilliyini yüksək səviyyədə qeyd edəcəyimiz qəzetdə, xüsusilə diqqətimi çəkən muxtar respublikanın mədəni həyatına, xüsusilə də dövlət qayğısı sayəsində incəsənətin inkişafına xüsusi yer ayrılmasıdır. Məni bu məktubu yazmağa sövq edən daimi oxucu kimi qəzet əməkdaşlarını yüzillik yubiley münasibətilə təbrik etmək arzum oldu. Bu məktubla həm də ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun sərəncamına əsasən istedadlı bəstəkar, pedaqoq, mənim dəyərli müəllimim Məmməd Məmmədovun 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar qəzetdə maraqlı silsilə yazıların dərc olunmasına görə minnətdarlığımı bildirmək istədim.

Naxçıvanda musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətləri olan incəsənət xadimlərindən biri də Məmməd Məmmədov idi. Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, bəstəkar, dirijor, xormeyster və pedaqoq Məmməd Məmmədovun Naxçıvanda truba və akkordeon siniflərinin, vokal ansambllarının, xor kollektivlərinin yaradılmasında böyük əməyi olmuşdur. Bəstəkarın bir-birindən gözəl mahnıları indi də konsert salonlarında səsləndirilir.

Xüsusi vurğulamaq istəyirəm ki, mənim taleyimdə Məmməd Məmmədovun böyük rolu olub. Onunla birlikdə "Əlvan çiçəklər" ansamblında birgə çalışmışıq, daha dəqiq desəm, həmin musiqi kollektivinə məni o xeyirxah insan gətirmişdi. Həmin ansamblın üzvlərinin çoxu indi ölkəmizin yüksək fəxri adlarını daşıyırlar.

Dəfələrlə Məmməd Məmmədovla qastrol səfərlərində olmuş, ona göstərilən sevgi və məhəbbəti görmüşəm. Ölkəmizin məşhur musiqi xadimləri ona böyük hörmət göstərirdilər.

Fəxr edirəm ki, bu gün Azərbaycanda, onun ayrılmaz bir guşəsi olan Naxçıvanda müəllim, sonra isə iş yoldaşım olmuş Məmməd Məmmədov hörmətlə xatırlanır.

Onunla birlikdə işləmiş yoldaşlarım adından belə böyük diqqətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımı bildirirəm.

**Hidayət MƏMMƏDƏLİYEV**
***Naxçıvan şəhəri***

## Su həyatdır



*Salam, hörmətli redaksiya!*

Bu məktubu sizə ünvanlayaraq həm bütün kənd sakinləri adından sevincimizi ifadə etmək, həm də bizə belə şərait yaradanlara minnətdarlığımı çatdırmaq istəyirəm.

Bol məhsul yetişdirmək üçün həmişə təbiətə bel bağlamaq olmur. Bir də görürsən ki, yaz-yay aylarında havalar quraqlıq keçir, günlərlə torpağa bir damcı yağış düşmür. Elə buna görə də muxtar respublikamızda suvarma sistemlərinin genişləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu da aqrar sahənin inkişafında, keyfiyyətli kənd təsərrüfatı məhsulları istehsalında başlıca amillərdən biridir. Bizim kəndimizdə də yeni nasos stansiyasının istifadəyə verilməsinə ehtiyac var idi. Bunun üçün elektrik təsərrüfatı yeniləndi və nasos stansiyası istifadəyə verildi. Bu gün yaradılan şərait sayəsində bir vaxtlar susuzluqdan cadar-cadar olmuş torpaqlarımız, ilan mələyən çöllərimiz gülüstana dönməkdədir.

"Hər qaranlıq gecənin bir işıqlı sabahı var", – deyib atalarımız. Bizi bu işıqlı sabahlara çıxaranlara, babalarımızdan qalmış su çəkib, yol salmaq kimi xeyirxah ənənələri bu gün də yaşadanların, elinin, camaatının qədrini bilənlərin su qədər ömrü olsun!

**Rəşad ALLAHVERDİYEV**
***Şahbuz rayonu, Külüs kənd sakini***

## Əsgərlərimizə hörməti, köməyi özümə borc bilirəm



*Hörmətli redaksiya!* Biz xoşbəxtik ki, doğma yurdumuz, müstəqil dövlətimiz, Vətənimizi yağılardan qoruyan güclü ordumuz, onun sıralarında xidməti borcunu yerinə yetirən əsgərlərimiz vardır. O əsgərlər ki vətənpərvər, cəsur, mərd, güclüdürlər. Onların qətiyyəti, məğrurluğu sayəsində torpaqlarımız bu gün də inamla qorunur. Ötən il qazandığımız Böyük Qələbə qorxmaz, qətiyyətli Vətən oğullarımız sayəsində mümkün oldu, düşmən məğlub edildi, 30 illik həsrətimiz sona yetdi. Ona görə də əsgər adı şərəf, ləyaqət, məğrurluq rəmzidir.

Bu gün muxtar respublikamızda əsgərə – yurdun keşikçisinə hörmətlə yanaşılır, onlara lazımi qayğı və diqqət göstərilir. Bu qayğını ötən əsrin 90-cı illərində hər an işğal təhlükəsi ilə üz-üzə qalmış Naxçıvanı xatırlayanda daha yaxşı dərk edirik. O vaxtlar indiki kimi şərait yox idi ki, bizi qoruyan əsgərlərimiz üçün əlimizdən gələni edək. İndi çox şükür ki, buna şərait yaradılıb. Mən sağlamlıq imkanı məhdud şəxs olsam da, əsgərlərimizə kömək göstərməyi həmişə özümə borc bilirəm, onları da öz övladım kimi görürəm. 10 ildən artıqdır ki, əsgərlərimizə corab, boyunbağı, şərf və jilet toxuyuram. Əl işlərim onları səngərdə şaxtadan-sazaqdan qoruyur. Mən səngərlərdə vüqarla, iftixarla dayanan, yurdumuzu göz bəbəyi kimi qoruyan oğullarımızla fəxr edir, qürur duyuram.

**Saimə NOVRUZOVA**
***Şərur rayon Çərçiboğan kənd sakini***

## Dövlət dəstəyi ilə məşğulluğumuz təmin edilir

*Hörmətli redaksiya!*

Muxtar respublikamızda uğurlu sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri də əhalinin məşğulluğunun təmin edilməsidir. Bu sahədə görülən işlər aztəminatlı ailələrin sosial müdafiəsini gücləndirir, onlar aktiv əməyə cəlb edilir.

Elə mən də bu sahəyə göstərilən qayğıdan istifadə edərək Şərur Rayon Məşğulluq Mərkəzinə müraciət etdim. Çox keçmədən müraciətimə cavab verildi. Şəraitimizi öyrənib ailəmizə bir baş yanıbalalı, iribuynuzlu heyvan verildi. Göstərilən diqqəti nəzərə alaraq bundan sonra çalışacağam ki, verilən heyvanlara lazımi qaydada qulluq göstərim və onların sayını artırım. İnanıram ki, əldə edəcəyim heyvandarlıq məhsulları ailəmizin təminatında mühüm rol oynayacaq. Həmçinin gələcəkdə istehsal edəcəyimiz məhsulları bazara çıxara, ehtiyacımızı ödəyə biləcəyik. Bu, ailə başçısı olmayan bir qadın üçün böyük bir qayğıdır.

Ailəm adından göstərilən bu dəstəyə görə dövlətimizə minnətdarlığımı bildirirəm.

**Xanım CƏFƏRLİ**
***Şərur rayon Tumaslı kənd sakini***


***İtmişdir***

Naxçıvan şəhəri, İstiqlal küçəsi, bina 93, mənzil 15-də yaşayan Abbasov Azər Yusif oğlunun adına olan evin 8859 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Güntac Şahməmmədli

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 463